**Əməkdaşlıq fəaliyyətləri**

- AQTA ilə Böyük Britaniyanın müvafiq qurumları arasında qida təhlükəsizliyi, bitki və heyvan sağlamlığı sahələrində mütəmadi əməkdaşlıq həyata keçirilir.
- 2026-cı il yanvar-may ayları ərzində “Fera Science Limited” (FAPAS), “LGC Standards” və “GD Animal” şirkətləri ilə Agentliyin tabeliyində Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun tabeliyində fəaliyyət göstərən laboratoriyalarında qida təhlükəsizliyi və heyvan sağlamlığı istiqamətində səriştəliliyinin artırılması, aparılan müayinələrin keyfiyyətinə nəzarət və laboratoriyaların akkreditasiyası istiqamətində əməkdaşlıq aparılmış, səriştəlilik sınaqları, referans materiallar və referans ştammların alınması istiqamətində işlər görülmüşdür.
- 2025-ci ildə ölkəmizdən Birləşmiş Krallığa kürünün ixracını həyata keçirmək üçün Agentliklə Birləşmiş Krallığın Ətraf Mühit, Qida və Kənd İşləri Departamenti (bundan sonra – DEFRA) arasında aparılan danışıqlar davam etdirilmişdir. Cari il üzrə Monitorinq Planı və əvvəlki ilin nəticələri, həmçinin kürüdən əlavə balıqların da daxil olduğu yeni Monitorinq Planı və digər müşayiətedici sənədlər DEFRA-ya təqdim olunmuşdur. 2025-ci il 4 noyabr tarixində DEFRA tərəfindən Azərbaycanın monitorinq planlarının dəyərləndirilmə mərhələsinin yekunlaşmaq üzrə olduğu bildirilmiş və nəticənin müsbət olacağı təqdirdə növbəti mərhələnin ixrac icazəsi ilə bağlı qanunvericilik aktlarının hazırlanmalı olduğu qeyd edilmişdir.
- 2025-ci ilin noyabr ayında Birləşmiş Krallıqdan Azərbaycan Respublikasına ixrac olunan damazlıq və istifadə məqsədli xırdabuynuzlu heyvanlara dair baytarlıq sertifikatı razılaşdırılmışdır.
- 2024-cü il 19-20 avqust tarixlərində Agentlik sədrinin müşaviri Məmmədrəhim Nəcəfovun Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına səfəri baş tutmuşdur. Səfər zamanı Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Ətraf mühit, Qida və Kənd İşləri Departamentinin (DEFRA) nümayəndələri ilə görüş keçirilmiş, qida təhlükəsizliyi, bitki sağlamlığı və baytarlıq sahələrində ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi perspektivləri, ölkəmizdən Birləşmiş Krallığa kürü məhsullarının ixracı, baytarlıq nəzarətində olan məhsulların idxalı üçün onlara verilən baytarlıq-sağlamlıq sertifikatlarının razılaşdırılması, qeyd edilən sahələrdə kadr hazırlığı və təcrübə mübadiləsi kimi məsələlər ətrafında müzakirələr aparılmışdır.
- Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının qida təhlükəsizliyi sisteminin beynəlxalq standartlara və Azərbaycan Respublikasının milli qida təhlükəsizliyi sisteminə uyğunluğunu nəzərə alaraq, həmçinin aparılmış təhlillərə əsaslanaraq, Azərbaycan Respublikasının “Qida təhlükəsizliyi haqqında" Qanunundan irəli gələrək 2024-cü il 5 mart tarixində Krallığın qida təhlükəsizliyinə nəzarət sisteminin ekvivalentliyinin tanınması barədə AQTA tərəfindən qərar qəbul edilmiş və bu barədə Birləşmiş Krallığın Qida Standartları Agentliyinə məlumat göndərilmişdir. Nəticədə, Britaniyanın yüksək riskli qida və yem məhsulları istehsal edən müəssisələri Agentlik tərəfindən əlavə qiymətləndirmə tədbirləri aparılmadan Britaniyada qeydiyyata alındıqdan və (və ya) təsdiq edildikdən sonra öz məhsullarını Azərbaycan Respublikasına ixrac edə bilirlər.
- 2021-ci il 1 dekabr tarixində AQTİ ilə Böyük Britaniyanın Heyvan və Bitki Sağlamlığı Agentliyi (APHA) arasında onlayn görüş keçirilib. Görüş çərçivəsində APHA-nın sınaq portfeli və

səriştəlilik sınaq sxemləri, ticarətə dəstək sınaqları, qida təhlükəsizliyi üçün tədqiqat və eksperimental inkişaf və nəzarət, keyfiyyət idarəetmə sistemləri və akkreditasiya sistemi və İnstitutun fəaliyyəti barədə təqdimatlar olub. Tərəflər Azərbaycanda heyvan və bitki sağlamlığı üzrə prioritet istiqamətlərdə əməkdaşlığın davam etdirilməsi, ortaq əməkdaşlıq istiqamətləri üzrə təkliflərin qarşı tərəfə göndərilməsi, qarşılqılı əməkdaşlıq istiqamətlərinin müzakirəsi məqsədilə hər iki qurumun mütəxəssisləri arasında virtual formatda görüşlərin keçirilməsi, Böyük Britaniyanın müvafiq qurumunun Referens Laboratoriyalarının təcrübəsinin öyrənilməsi, elmi-tədqiqat işlərinin aparılması istiqamətində təkliflərin müəyyən edilməsi, monitorinq və səriştəlilik sınaqlarında iştirak üzrə əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi və s. barədə razılığa gəliblər.

- 2020-ci il 27 yanvar tarixində AQTA nümayəndə heyəti Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına işgüzar səfər edib. Səfər zamanı nümayəndə heyəti Böyük Britaniyanın Qida Standartları Agentliyinin (FSA) direktor müavini Maykl Ceksonla və Birminhem Universitetində müxtəlif görüşlər keçirib. Görüşlərdə qida təhlükəsizliyi sahəsində təcrübə mübadiləsi aparılıb, elektron qeydiyyat və qida reytinq sistemləri təqdim olunub, həmçinin Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu ilə Birminhem Universiteti arasında əməkdaşlıq imkanları müzakirə edilib.
- 2025-ci il və 2026-cı ilin ötən dövrü ərzində Azərbaycandan Birləşmiş Krallığa makaron məmulatları, alkoqollu içkilər, bitki yağı, çay və s. ixrac olunmuş, Birləşmiş Krallıqdan ölkəmizə isə əsasən, süd və süd məhsulları, balıq əti, uşaq yeməkləri, siroplar, alkoqollu və alkoqolsuz içkilər idxal edilmişdir.